*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 21 sentyabr 2016-cı il | № 73 (2088) | Qiymәti 25 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev Ermənistan prezidentinin təxribat xarakterli çıxışına tutarlı və sərt cavab verdi

*MDB Dövlət Başçıları Şurasının sentyabrın 16-da Bişkekdə keçirilən məhdud tərkibli iclasında Ermənistan prezidenti Serj Sarkisyan bu ilin aprelində cəbhə bölgəsində baş vermiş hadisələrlə bağlı Azərbaycandan şikayət xarakterli çıxış edib. O, bu hadisələr zamanı Azərbaycanın guya atəşkəs rejimini pozduğunu deyib.*




AZƏRTAC xəbər verir ki, Ermənistan prezidentindən sonra əlifba sırası ilə Belarus Prezidenti Aleksandr Lukaşenko çıxış etməli idi. Prezident İlham Əliyev Belarus Prezidentindən xahiş etdi ki, ona danışmaq üçün imkan versin. Belarus Prezidentinin razılığından sonra çıxış edən Prezident İlham Əliyev Ermənistan prezidentinə tutarlı və sərt cavab verərək dedi:

- Ermənistan prezidentinin sözlərinə şərh verməyi özümə borc bildim. Mən Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsinin başqa beynəlxalq strukturlarda həll edilməsini əsas tutaraq, bu gün bu mövzuda danışmağı lazım bilmədim. Amma, erməni tərəfinin növbəti şikayətini eşidəndə, bunu şərh etməyi özümə borc saydım.

Erməni tərəfi bu şikayətlərlə artıq bütün beynəlxalq təşkilatları bezdirib. Təsəvvür edirsinizmi, vəziyyət kifayət qədər paradoksaldır: Ermənistan suveren dövlətin ərazisini işğal edir, onun ərazi bütövlüyünü pozur, Dağlıq Qarabağdan və ona bitişik yeddi rayondan yerli azərbaycanlı əhalini qovur, bir milyon insanı qaçqın və məcburi köçkün vəziyyətinə salır, işğal edilmiş ərazilərdə hər şeyi, o cümlədən tarixi, dini, mədəni abidələrimizi, bütün infrastrukturu dağıdır, - bu, ATƏT-in iki missiyasının məruzələri ilə təsdiq edilib, - sonra isə 20 ildən artıq müddətdə danışıqlar prosesini imitasiya etməklə məşğul olur. Eyni zamanda, bu prosesin sonsuz olması üçün vaxtaşırı müxtəlif təxribatlara əl atır və onlardan biri məhz bu ilin aprelində oldu. Azərbaycanın dinc sakinlərinin beş yüzdən çox evi erməni ordusu tərəfindən artilleriya atəşinə məruz qaldı, yüzdən çox ev dağıdıldı, aralarında uşaqlar da olmaqla, təxminən on dinc vətəndaş qətlə yetirildi, həlak oldu.

Beynəlxalq təşkilatlar bu məsələnin necə tənzimlənməli olduğunu çox dəqiq anlayırlar. Ali beynəlxalq struktur var - BMT Təhlükəsizlik Şurası. Bu strukturdan yüksəyi yoxdur. Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edib. Həmin sənədlərdə erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən qeyd-şərtsiz və dərhal çıxarılması tələb olunur. Bu qətnamələr yerinə yetirilmir. Ermənistan onlara məhəl qoymur və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati sərhədlərini süni şəkildə dəyişdirməklə, həmin ərazini qanunsuz məskunlaşdırmaqla yeni reallıqlar yaratmağa çalışır. Bu, tamamilə qanunsuzdur, cinayətdir və bu cinayət indiyə qədər davam edir.

Biz sülh prosesinə sadiqik. Biz konstruktiv işləyirik. Minsk Qrupu mövcuddur. Amma erməni tərəfi bu formatdan yalnız danışıqlar prosesinin sonsuz olması üçün istifadə edir. Onlar sülh istəmirlər. Onlar bizim ərazilərimizi daim nəzarət altında saxlamaq və hər yerdə Azərbaycanı bunda ittiham etmək istəyirlər ki, guya biz nəyisə pozuruq. Biz zərər çəkmiş tərəfik. Biz heç kəsin ərazisini işğal etməmişik. Bizim ərazilərimiz, beynəlxalq birlik tərəfindən tanınmış Azərbaycan ərazilərinin 20 faizi işğal altındadır. Reallıqlar bundan ibarətdir. Buna görə mən Ermənistan prezidentinin növbəti yersiz şikayətini nəzərə alaraq, bir daha bunları həmkarlarımızın diqqətinə çatdırmağı özümə borc bildim.

**Serj Sarkisyan:** Yalana cavab verməyin sadəcə mənası yoxdur.

**İlham Əliyev:** Mən yalana artıq cavab verdim.



Vəzifə borcumuz

2-ci səhifədə



"Sülhə gəlin, ey insanlar, yoxsa dünya məhv olar"

4-cü səhifədə



Əlverişli şərait nümunəvi xidmətə zəmindir

5-ci səhifədə



"Atalarımızın yolunu biz davam etdirməliyik"

6-cı səhifədə

# Müdafiə naziri Türkiyənin Azərbaycanda diplomatik fəaliyyəti başa çatan səfiri ilə görüşüb



*Sentyabrın 20-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyənin Azərbaycanda diplomatik fəaliyyəti başa çatan fövqəladə və səlahiyyətli səfiri İsmail Alper Coşkun ilə görüşüb.*

Görüşdə Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğu, bu əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi və ölkələrimiz üçün faydalı olduğu vurğulanıb.

Səfirlə əvvəlki görüşlərini xatırlayan Müdafiə naziri ölkələrimiz arasında əlaqələrin inkişafına verdiyi töhfəsinə görə diplomata təşəkkür edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Səfir görüşə görə minnətdarlığını ifadə edərək ölkəmizdən xoş təəssüratlarla ayrıldığını, Azərbaycan dövlətinin və xalqının daim səmimi dostu olaraq qalacağını vurğulayıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## STANAG testlərinin tərtib edilməsi üzrə təcrübə mübadiləsinə dair seminar keçirilib

Azərbaycan və Latviya Müdafiə nazirlikləri arasında 2016-cı il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasında Latviya Silahlı Qüvvələri Dil Məktəbi nümayəndələrinin iştirakı ilə seminar keçirilib.

STANAG testlərinin tərtib edilməsi üzrə təcrübə mübadiləsinə və hazırlanmış testlərin qarşılıqlı sınaqdan keçirilməsinə dair seminarda test materiallarının moderasiya edilməsi, pilotlanması, qarşılıqlı istifadəsi və nəticələrin uzlaşdırılması mövzuları üzrə müzakirələr aparılıb.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***19 sentyabr 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 8 dəfə pozub.

Ermənistan respublikası İcevan rayonunun Vazaşen kəndində yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Çiləbürt kəndi yaxınlığında, həmçinin Goranboy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***20 sentyabr 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 12 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Füzuli rayonunun Horadiz kəndi yaxınlığında, həmçinin Goranboy, Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Döyüş hazırlığı*

# Vəzifə borcumuz

*Mükəmməl təlim keçmədən yüksək döyüş hazırlığından söz açmağa dəyməz. Silahlı Qüvvələrimizin birlik və birləşmələrində müntəzəm olaraq müxtəlif qoşun bölmələrinin iştirakı ilə təlimlər keçirilir. Yüksək hərbi biliyə və döyüş təcrübəsinə malik zabitlərin rəhbərliyi altında əsgərlər döyüş hazırlıqlarını yetərincə artırırlar.*



Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində şəxsi heyətin taktiki hazırlıq məşğələsində iştirak etmək istədim. Zabit Süleyman Vəliyev bildirdi ki, əsgərlər təlimdədirlər. Vaxt itirmədən qərargahdan bir qədər aralıda yerləşən təlim yerinə yola düşdük.

Zabitlə qısa tanışlıqdan məlum oldu ki, Bakı Dövlət Universitetinin məzunudur. On ildən artıqdır ki, Silahlı Qüvvələrdə xidmət edir. Hərbçi olmaq onun ən böyük arzusu olub.

Bölmənin taktiki təlim yerinə çatanda baş leytenant Sahil Əhmədli bildirdi ki, onlar təsdiq olunmuş dərs cədvəlinə uyğun mövzuları şəxsi heyətə çatdırıblar. Məşğələnin məqsədi ilə bağlı baş leytenant deyir:

- Müdafiə iki cür qurulur; düşmənlə təmas şəraitində və düşmənlə təmasda olmadan. Biz düşmənlə bilavasitə təmas şəraitində müdafiənin sirlərini öyrənirik. Bunun üçün ilk növbədə əlverişli ərazini seçmək lazımdı. Daha sonra səngər qazılmalı və səngərlər arası əlaqə yolları hazırlanmalıdır.

Zabit qeyd etdi ki, səngərlər həm də əraziyə uyğun maskalanmalıdır və bunu düşmən hiss etməməlidir. Necə deyərlər, görünmədən görmək tələbinə əməl olunmalıdır.

Kiçik çavuş Nicat Əliyev müddətdən artıq həqiqi hərbi xidmətdədir. Qazax rayonundan ordu sıralarına çağırılıb. Nicat bütün təlimlərdə özünü bacarıqlı və tələbkar manqa komandiri kimi tanıtdırıb. O



hələ kiçik yaşlarından zəhmətə bağlı olub, çilingər işləyib. Ordu sıralarından tərxis olunandan sonra da doğma kəndlərində çilingər kimi çalışıb. Bu gün isə ona hərbi xidmətdə kiçik komandir vəzifəsi etibar olunub. Həmişə komandirlərinin etimadını doğrultmağa çalışır.

Əsgər Təbriz Əmiraslanovun hərbi xidmətini başa vurmasına az qalıb. Deyir ki, əsgərlik onun üçün böyük bir həyat məktəbi olub. "Ordu həyatı dözümlü olmağı öyrədir. Bundan başqa xidmət dövründə bir çox silahlardan istifadə qaydalarını mənimsəyib, döyüş vərdişlərinə yiyələnmişəm. Bunların hamısı həyatımın unudulmaz anlarıdı. Müddətli həqiqi hərbi xidmətimi başa vurandan sonra yenidən ordu sıralarına qayıtmaq fikrindəyəm."

Əsgərlərdən Natiq Ağazadə, Elnur Cəfərov, Tərlan Rzazadə və başqaları da hərbi bilik və vərdişlərə dərindən yiyələnməyə çalışırlar. Onlar qısa müddətdə atıcı silahların taktiki-texniki xüsusiyyətlərini, onlardan istifadə qaydalarını öyrəniblər.

Qarşımızda uca dağlar sıralanıb. Dağların o üzü də Vətəndi. Erməni işğalı altında qalan yurd yerlərimiz üçün qəribsəmişik. Həmsöhbət olduğum döyüşçülər torpaqlarımızı azad etməyə tələsirlər. Onlar hər an Ali Baş Komandanın əmrini gözləyirlər. Bu gün təlimdə qazandıqları hərbi bilik və bacarıqlarını tezliklə döyüşdə tətbiq etmək istəyirlər.

**Mayor Bəxtiyar ƏLİYEV, "Azərbaycan Ordusu"**

# Azərbaycan Prezidentinin Ermənistan prezidentinə sərt və tutarlı cavabı Silahlı Qüvvələrin şəxsi heyətində böyük ruh yüksəkliyi yaradıb

*MDB Dövlət Başçıları Şurasının sentyabrın 16-da Bişkekdə keçirilən məhdud tərkibli iclasında Ermənistan prezidenti Serj Sarkisyanın bu ilin aprelində cəbhə bölgəsində baş vermiş hadisələrlə bağlı Azərbaycandan şikayət xarakterli çıxışı və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təcavüzkar ölkənin başçısına tutarlı və sərt cavabı bütün xalqımız kimi, Silahlı Qüvvələrin şəxsi heyətinin də böyük marağına səbəb olub.*




Birlik, birləşmə, hərbi hissələrdə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində keçirilən siyasi məlumatlandırma saatlarında, ictimai-siyasi hazırlıq dərslərində şəxsi heyət Ali Baş Komandanımızın bu dəfəki qətiyyətli və sərt cavabını da Ermənistan hərbi-siyasi xuntasının liderinə vurulan növbəti zərbə, sillə kimi dəyərləndiriblər.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində keçirilən "dəyirmi masa"da Müdafiə Nazirliyinin əməkdaşları, ayrı-ayrı qoşun növləri və qismlərinin, Bakı Qarnizonu hərbi hissələri, xüsusi təyinatlı təhsil müəssisələrinin nümayəndələri iştirak ediblər.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev "dəyirmi masa"nı giriş sözü ilə açıb.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İlk söz alan polkovnik Abdulla Qurbani məlumat üçün bildirib ki, MDB Dövlət Başçıları Şurasının Bişkekdə keçirilən iclasında Ermənistan prezidenti yenə də Azərbaycana qarşı qərəzli və təxribat xarakterli çıxış edərək bu ilin aprelində guya Azərbaycan tərəfinin atəşkəs rejimini pozduğunu iddia edib. "O, özündən sonrakı çıxışların əlifba sırası ilə davam edəcəyini və Azərbaycan Respublikasının Prezidentinin bu şikayətə münasibət bildirməyəcəyini düşünərək bu addımı atsa da, ölkəmizin başçısı çıxış etməli olan Belarus prezidentindən ona danışmaq üçün imkan verməsini xahiş edib və məmnuniyyətlə razılıq aldıqdan sonra cənab İlham Əliyev əlləri yüzlərlə günahsız insanın, eləcə də uşaq və qadının qanına bulaşmış, öz xalqını belə uçuruma aparan Serj Sarkisyanı çox gözlətməmişdir.

Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsinin başqa beynəlxalq strukturlarda həll edilməsini əsas tutaraq, bu mövzuda danışmağı lazım bilməyən, amma erməni tərəfinin növbəti şikayətini eşidəndə bunu şərh etməyi özünə borc sayan möhtərəm Prezidentimiz hiddətlənərək iclas iştirakçılarının diqqətinə çatdırıb ki, erməni tərəfi bu şikayətlərlə artıq bütün beynəlxalq təşkilatları bezdirib.

Suveren Azərbaycan dövlətinin ərazi bütövlüyünü pozduğu, Dağlıq Qarabağdan və ona bitişik yeddi rayondan yerli azərbaycanlı əhalini qovduğu, bir milyon insanı qaçqın və məcburi köçkün vəziyyətinə saldığı, işğal edilmiş ərazilərdə hər şeyi, o cümlədən tarixi, dini, mədəni abidələrimizi, bütün infrastrukturu dağıtdığı halda, Ermənistan yenə də danışıqlar prosesini imitasiya etməklə məşğuldur. Bu prosesin sonsuz olması üçün vaxtaşırı müxtəlif təxribatlara əl atır, onlardan biri də məhz bu ilin aprelində baş vermişdir."

"Dəyirmi masa"da qeyd olunub ki, həqiqətən, martın sonlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri yenə intensiv olaraq bütün istiqamətlərdə mövqelərimizi, eləcə də yaşayış məntəqələrimizi atəşə tutmuş, 100-dən çox ev dağılmış, dinc vətəndaşlar qətlə yetirilmiş, həlak olmuşlar.

Beynəlxalq müharibə qanunlarına uyğun olaraq Ermənistan tərəfinə dəfələrlə bəyanatlar verilsə də, düşmən tərəfi məkrli və hiyləgər niyyətlərindən əl çəkməmiş, əksinə, hücumlarını daha da genişləndirərək Azərbaycan tərəfi silahlı təxribata cəlb etmək istəmişdir. Lakin Azərbaycan Ordusu əks-həmlə ilə düşmənin layiqli dərsini verərək, 23 ildən də çox işğal altında olan torpaqlarımızın bir hissəsini azad etmiş və böyük bir ərazi nəzarətə götürülmüşdür.

Ali Baş Komandanımızın Prezidentini dəlil-sübutlarla öz yerində oturtması xəbərinin şəxsi heyətin döyüş ruhunun, vətənpərvərlik hissinin daha da yüksəlməsinə səbəb olduğunu deyən polkovnik Həbib Məmmədov qeyd edib ki, Qarabağ məsələsində haqq-ədalət bizim tərəfimizdədir və beynəlxalq qanunlar da Azərbaycanın xeyrinə işləyir. "Lakin biz bununla arxayınlaşmamalı və Ali Baş Komandanımız beynəlxalq tədbirlərdə, ümumiyyətlə, siyasi arenada erməni və ermənipərəst qüvvələri sərrast çıxışları və bəyanatları ilə həmişə vaxtında susdurduğu kimi, biz də hər an düşmən təxribatlarının qarşısını almağa hazır olmalıyıq və buna da hazırıq. Biz Ali Baş Komandanımıza arxalanır, ona güvənir və belə bir qətiyyətli, yenilməz sərkərdənin komandanlığı altında xidmətdən böyük qürur duyuruq."

Polkovnik-leytenant Rövşən Qarayev Azərbaycan Prezidenti İlham Əliyevin Serj Sarkisyana dəfələrlə tutarlı cavab verdiyini, lakin əks tərəfin abır-həya etmədən yenə də öz mərəzindən əl çəkmədiyini vurğulayıb. "Hələ aprelin 24-də Praqada Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramının 5 illiyinə həsr olunmuş sammitdə Türkiyə nümayəndələrinin təmsil olunmadığından istifadə edən Ermənistan prezidenti rəsmi Ankaranı qondarma "soyqırımı" ilə bağlı konstruktiv mövqe tutmaqda, digər tərəfdən isə Ermənistanla sərhədlərini açmamaqda əsassız olaraq ittiham edərək bu ölkənin Avropa İttifaqına üzvlüyünün yolverilməz olduğunu deyəndə, Azərbaycan Prezidenti İlham Əliyev bu çıxışdan dərhal sonra "Bu gün, təəssüf ki, Ermənistan prezidenti burada fürsətdən istifadə edərək Türkiyəyə yenidən hücum edir. Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam", - deyə Ermənistan prezidentinə sərt cavab vermiş və onun səsləndirdiyi əsassız iddialar qarşısında Türkiyəni qətiyyətlə müdafiə etmişdir.

Bişkekdə "Mən yalana artıq cavab verdim" sözləri ilə Serj Sarkisyanı sındıran, mənən əzən (əgər onda mənlik varsa) Ali Baş Komandanımızın bu tutarlı cavabından sonra da Serj yəqin ki, yenə də öz nanəcib xislətindən əl çəkməyəcəkdir. Bu onun aldığı nə birinci, nə də sonuncu sərt cavabdır. Yalnız düşməni gücümüzlə, birliyimizlə işğal olunmuş torpaqlarımızdan süpürüb çıxartmalıyıq və buna da gücümüz çatır."

Zabit R. Qarayevin çıxışının davamı olaraq polkovnik-leytenant Qasid Əsgərov bildirib ki, həqiqətən, regionda olan qüvvələr balansı Azərbaycanın xeyrinədir. "Necə ki, aprel döyüşləri zamanı "qüdrətli Ermənistan ordusu" mifini aradan qaldırdıq, eləcə də digər torpaqlarımızı da düşməndən azad edəcəyik. Bu heç kimdə şübhə doğurmamalıdır."

Polkovnik-leytenant Elşən Qafarov bu çıxışa əlavə olaraq bildirib ki, son vaxtlar ermənilər bir mesaj olaraq Ermənistanın müstəqilliyinə həsr olunmuş hərbi parada hazırlıq məqsədilə keçirilən məşqlərdə "İsgəndər" kompleksini nümayiş etdirirlər. "Ancaq onlar bilməlidirlər ki, Azərbaycan Ordusunun silahlanmasında elə hücum və müdafiə sistemləri vardır ki, onlar ölkəmizə təhlükə ola biləcək istənilən hərbi obyektləri məhv etməyə qadirdir. Bundan savayı, hərbi qulluqçularımızın döyüş ruhu çox yüksəkdir. Düşmən bir daha başa düşməlidir ki, aprel döyüşlərində təkcə Azərbaycan Ordusu silah və texnikalarla qələbə qazanmadı. Bu, dövlətimizin və ordumuzun gücünü, xalqımızın vətənpərvərliyini və həmrəyliyini, eləcə də Ali Baş Komandanımızın qətiyyətini və sözünün sahibi olduğunu göstərən möhtəşəm bir qələbə idi."

"Dəyirmi masa"da polkovnik Faiq İsmayılov, polkovnik-leytenantlar Arif Pənahov, Asif Həşimov, leytenant Ariz İbrahimov, kursant Nəsimi Məmmədli və başqaları çıxış edərək Azərbaycan Prezidentinin Ermənistan prezidentinə sərt və tutarlı cavabının hər bir zabit, əsgər və kursantda böyük ruh yüksəkliyi yaratdığını bildiriblər.

General-mayor Rasim Əliyev tədbirdə yekun nitqi söyləyərək Silahlı Qüvvələrin şəxsi heyətinin bundan sonra da öz müdrik rəhbərinin və qətiyyətli Ali Baş Komandanının əmrlərinə hər an hazır olacağını qeyd edib.

Sonda "dəyirmi masa" iştirakçılarına Əməkdar jurnalist Rəşid Faxralının aprel döyüşlərinə həsr etdiyi "Lələtəpə" kitabı hədiyyə edilib.

**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

# Özbəkistan portalı Ermənistanın beynəlxalq humanitar hüququ pozmasından yazır

*Azərbaycanın Özbəkistandakı səfirliyi və bu qurumun nəzdindəki Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə "Sharh.uz" xəbər saytında Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn pozulmasına dair məqalə yayılıb.*

Məqalədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Hikmət Hacıyevin bu məsələ ilə bağlı açıqlamasına istinadən bildirilir ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunması, Ermənistanın həmin ərazilərdə qanlı, etnik təmizləmə siyasəti aparması, Xocalı soyqırımı, Azərbaycan xalqının maddi və mədəni irsinin, mülki obyektlərinin, təbii ehtiyatlarının talan edilməsi, mülki əhaliyə qarşı hücumlar, onların öldürülməsi, əsir və ya girov götürülmüş insanlara qarşı qeyri-insani rəftar, işgəncələrin verilməsi beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasına səbəb olub. Ermənistan tərəfi 1949-cu ildə qəbul edilmiş Cenevrə Konvensiyasını, 1954-cü ildə hərbi münaqişələr zamanı mədəni irsin qorunmasına dair Haaqa Konvensiyasını pozub.

Məqalədə, həmçinin bu il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrini, təmas xəttindəki dinc əhalini artilleriya atəşinə tutduğu, nəticədə Azərbaycanın 30-dan çox şəhər və kəndlərinə böyük ziyan dəydiyi, ölən və yaralananların olduğu qeyd edilir.

**AZƏRTAC**

## 21 Sentyabr Beynəlxalq Sülh Günüdür

# “Sülhə gəlin, ey insanlar, yoxsa dünya məhv olar”

*Bu gün bəşər övladının dərin qəlb döyüntüsü, sonsuz ümidlə işlətdiyi müqəddəs bir sözü vardır - Sülh! Bu kəlmənin məna tutumunun nə qədər böyük olduğunu müharibənin dəhşətlərini yaşamış insanlar daha dərindən dərk edirlər.*

Dərisinin rəngindən, dini etiqadlarından asılı olmayaraq dünyanın sülhsevər insanları açıq, aydın səmamızı qorumaq, müharibələrin qarşısını almaq üçün birgə mübarizənin vacibliyini önə çəkirlər. Bu birlik xalqların əmin-amanlıq içində yaşamasını, dövlətlər arasındakı mübahisəli məsələlərin sülh yolu ilə həll olunmasını təmin etmək əzmində olan adamların birliyidir.

Bu gün Prezidentimiz İlham Əliyev dünyada sülhün qorunması üçün qətiyyətli addımlar atır, bu istiqamətdə fədakarlıqla çalışır. XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan xalqımız dünya xalqları ilə sülh, dostluq şəraitində yaşayır. Lakin hələ də dünyada alovlanan müharibə ocaqları var. BMT, ATƏT kimi mötəbər təşkilatlar yardımçı kimi öz missiyalarını yerinə yetirirlər. Azərbaycanda da müxtəlif dönəmlərdə münaqişələr olub, dinc əhali amansızlıqla qətlə yetirilib. Keçən əsrin əvvəllərində baş verən 1918-ci ilin mart soyqırımı və 1992-ci il sonlarında qarşılaşdığımız Xocalı faciəsi tariximizin ən qanlı səhifələrindəndir.

Ulu öndər Heydər Əliyevin 26 mart 1998-ci il tarixli sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi bu gün də qeyd olunur. Xocalı soyqırımı isə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən keçmiş Sovet Ordusuna məxsus 366-cı motoatıcı alayın iştirakı ilə etnik azərbaycanlılara qarşı baş vermiş soyqırımıdır. Bu faciə Dağlıq Qarabağ münaqişəsi zamanı baş vermiş ən dəhşətli hadisələrdən biridir.



Bəşəriyyətin yaranışından müdrik insanlar topla, silahla deyil, elm və zəka ilə silahlanmağı üstün tutmuşlar. Onlar hər zaman insanları sülhə və işıqlı gələcəyə səs verməyə çağırmışlar. Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyevin qətiyyəti sayəsində 1994-cü il mayın 12-də cəbhədə atəşkəsə nail olunmuşdur. Müdrik rəhbərin fərmanı ilə 2000-2010-cu illər "Sülh - Mədəniyyət ili" kimi elan edilmişdir. Həmin illərdə ölkəmizdə elm, təhsil və mədəniyyət ocaqlarında "Yurda sülh, cahanda sülh", "Göyərçinim - sülh quşum", "Kəssə hər kim tökülən qan izini", "Sülh içində yaşa" və digər mövzularda müxtəlif başlıqlar altında sərgilər təşkil olunmuşdur.

BMT Baş Məclisi 21 Sentyabrı Beynəlxalq Sülh Günü olaraq dəyişməz bir tarix kimi təsdiq edib. Bu tarixi sənəd Beynəlxalq Sülh Gününün 20 illiyi ilə əlaqədar imzalanmışdır. Baş Məclisin qərarına əsasən, BMT-nin ona üzv olan ölkələrin və bütün bəşəriyyətin cəhdlərini mərkəzləşdirərək, sülh ideallarını inkişaf etdirməyə imkan verən xüsusi bir vaxt təyin olunmalı idi ki, 21 sentyabr da məhz bu nöqteyi-nəzərdən seçilmişdi.

Dünyada sülhün qorunması naminə atılan ciddi addımlardan biri də BMT-nin 60 illik yubileyinə həsr olunmuş "Qızıl Göyərçin" beynəlxalq sülh mükafatının 2008-ci ildən etibarən inteqrasiya, sülh, insan hüquqları bərabərliyi, sosial tərəqqi və azadlıq şəraitində yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması uğrunda mübarizə aparan şəxslərə təqdim edilməsidir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Bakıda NATO Mobil Təlim Qrupu tərəfindən kurs keçirilir




Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2016-cı il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, NATO-nun Ramştayn Hərbi Hava Qüvvələri (HHQ) Komandanlığının Mobil Təlim Qrupu tərəfindən "Birgə HHQ Əməliyyatlarının Planlaşdırılması" mövzusunda təlim kursu keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, kurs müddətində iştirakçılara "NATO HHQ-nin Komanda və Qüvvə strukturu", "Birgə Əməliyyatların Planlaşdırılmasının Əsas Xüsusiyyətləri" və digər mövzular barədə məlumatlar veriləcək, eləcə də işçi qruplarda fəaliyyətlər həyata keçiriləcəkdir.

Təlim kursu sentyabrın 23-dək davam edəcəkdir.



## Müdafiə siyasətinin planlaşdırılması və dövlət səviyyəli strateji planlama üzrə seminar keçirilib

Azərbaycanın Müdafiə Nazirliyi ilə Latviya və Litvanın Müdafiə nazirlikləri arasında cari il üçün ikitərəfli əməkdaşlıq planlarına əsasən, Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Baltikyanı dövlətlərin ekspertlərinin iştirakı ilə "Müdafiə siyasətinin planlaşdırılması və dövlət səviyyəli strateji planlama" mövzusunda seminar təşkil olunub.

Seminarda müdafiə siyasəti, müdafiə planlaşdırılması, milli təhlükəsizlik sahəsində strateji planlaşdırma sənədləri arasında əlaqə, ardıcıllıq və cəlb olunan iştirakçıların verəcəyi töhfələr, müdafiə qabiliyyətinin inkişaf etdirilməsi və digər mövzulara dair məruzələr dinlənilərək fikir mübadiləsi aparılıb.

# 120 dövlətin iştirak etdiyi Qoşulmama Hərəkatından Ermənistana zərbə

*Sentyabrın 13-18-də Venesuela Bolivar Respublikasının Marqarita adasında Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının "İnkişaf naminə sülh, suverenlik və həmrəylik" devizi altında XVII Sammiti keçirilib.*




AZƏRTAC xəbər verir ki, Sammitin yekun sənədində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bənd də yer alıb.

Yekun sənəddə dövlət və hökumət başçıları BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnaməyə baxmayaraq, Ermənistan-Azərbaycan münaqişəsinin hələ də həll olunmaması, beynəlxalq və regional sülh və təhlükəsizliyi təhdid altında qoymaqda davam etməsi ilə bağlı təəssüf ifadə ediblər. Onlar BMT Nizamnaməsində öz əksini tapmış gücdən istifadə etməmək prinsipinin önəmini bir daha təsdiq edib, tərəfləri münaqişəni Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri əsasında həll etməyə çağırıblar.

Beləliklə, 120 dövlətin üzv olduğu, BMT-dən sonra dünya miqyasında ən çox ölkənin təmsil olunduğu nüfuzlu beynəlxalq təsisatın - Qoşulmama Hərəkatının yekun sənədində Azərbaycanın haqlı mövqeyi açıq-aşkar dəstəklənir. Bu, Ermənistanın beynəlxalq miqyasda aldığı daha bir zərbə, Azərbaycan diplomatiyasının isə daha bir uğurudur.

## “Regiondakı hərbi qüvvələr balansı Azərbaycanın xeyrinədir”

"İsgəndər" operativ-taktiki raket komplekslərinin (OTRK) hətta Ermənistana məxsus olmasını fərz etsək belə, bu, regiondakı hərbi qüvvələr balansının Azərbaycanın xeyrinə olmasına maneə yarada bilməz.

Bu fikri ehtiyatda olan polkovnik Şair Ramaldanov Ermənistanın müstəqilliyinə həsr olunmuş hərbi parada hazırlıq məqsədilə keçirilən məşqlərdə "İsgəndər" komplekslərinin nümayiş olunması ilə bağlı AZƏRTAC-a açıqlamasında bildirib.

Ş.Ramaldanov qeyd edib ki, Azərbaycan Silahlı Qüvvələrinin döyüş texnikası, silahların keyfiyyəti və kəmiyyəti baxımından Ermənistan tərəfini xeyli üstələyir. Ordumuzun silahlanmasındakı minlərlə müxtəlif hücum və müdafiə sistemi dağıdıcı xarakterinə və məhvetmə xüsusiyyətinə görə ölkəmizə təhlükə mənbəyi ola biləcək istənilən hərbi obyekti darmadağın etmək qabiliyyətindədir.

"Ölkəmizə qarşı yönələn istənilən təhdidə daha sərt və qəti cavab vermək imkanına malik Azərbaycan Ordusunun görəcəyi adekvat tədbirlər, daxili siyasi ziddiyyətlər və iqtisadi böhran içərisində olan Ermənistanın tam iflasına gətirib çıxara bilər", - deyə ehtiyatda olan polkovnik bildirib.

*Ordu quruculuğu*

# Əlverişli şərait nümunəvi xidmətə zəmindir

*Cəbhə bölgəsində yerləşən hərbi hissədə səliqə-sahman baxana könül xoşluğudu. Əsgərlərin belə şəraitdə xidmət etmələrindən qürurlanırsan. Son vaxtlar Silahlı Qüvvələrimizdə həyata keçirilən islahatların nəticələri bu hərbi hissədə də aydınlığıyla hiss olunur, görünür. Səliqəli yataqxana, böyük yeməkxana, idman-məşq otağı, hamam-camaşırxana, bərbərxana... - hamısında da əsgəri səliqə-sahman diqqəti çəkir. Bu, Ali Baş Komandanın, Müdafiə nazirinin Silahlı Qüvvələrimizə, cəbhə bölgəsində yerləşən bu hərbi hissəyə qayğısına əməli minnətdarlığın təzahürüdür, şübhəsiz.*





Pərviz Hacağayevlə səmimi söhbətimiz də bu haqdadı. Zabit deyir ki, hərbi hissədə döyüş hazırlığı yüksək səviyyədədir. "Hərbi hissə təmas xəttində yerləşdiyindən düşmənin atəşkəsi pozma ehtimalı həmişə var. Biz buna hər an hazırıq. Əsgərlərimiz döyüş növbəsində sayıqdırlar. Düşmən həmişə nəzarətdə saxlanılır, onun hər cəhdinin qarşısı vaxtında alınır."

Hərbi hissədə mənəvi-psixoloji hazırlığın səviyyəsini daha da artırmaq məqsədilə Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq olaraq keçirilən tədbirlər sistemliliyi, əhatəliliyi ilə səciyyəvidir. Nəyi qoruduğunu bilən əsgər daha əzmkar, daha qətiyyətli, daha məsuliyyətli olur. Aparılan işlər sırasında "Azərbaycan Ordusu" qəzetində dərc edilən materialların kollektiv və fərdi oxunuşu da əhəmiyyətə malikdir.

Əsgərlər hərbi hissədə mövcud məişət şəraitindən razılıqla danışırlar:

- Yeməklərin istər çeşidi, istərsə də keyfiyyəti bizi razı salır. Təcrübəli aşpazların hazırladığı yeməklərdən narazı qalmağa haqqımız yoxdur. Aybəniz İsmayılovanın da, Kifayət İsmayılovanın da ana qayğısıyla ərsəyə gətirdiyi xörəklərin dadı-tamı bizə ailəmizi xatırladır.

Öyrənirik ki, bu hərbi hissədə də kaloriliyi nəzərə alınmaqla mövsümə müvafiq yeməklər hazırlanır. İçməli su problemi yoxdur. Hərbi hissəyə su məxsusi qablarda gətirilir ki, bu da ehtimal oluna bilən xəstəliklərin qarşısını alır.



Camaşırxanada paltarların, yataq dəstlərinin yuyulub-ütülənməsi üçün müasir aparatlar quraşdırılıb. Aparatların istismarı zamanı bu və ya digər hissənin dəyişdirilməsi zərurəti yarananda kənardan mütəxəssis dəvət etməyə ehtiyac yoxdur, çünki Ramiz Ələkbərov aparatların "dilini yaxşı bilir." Camaşırxananın işçisi Zərqələm Orucova deyir ki, paltarları ütüləyəndə, elə bilirəm öz balamın paltarlarıdı. "Əsgərlərin hər biri mənə öz balam kimi əzizdi. İstər paltarların, istərsə də yataq ləvazimatlarının vaxtında yuyulub-ütülənməsi əsgərin xidməti üçün vacibdir. Biz bunu qətiyyən unutmuruq."

Əsgərin fiziki vərdişlərinin artırılması döyüş hazırlığının mühüm tərkib hissələrindən biridir. Buna görə də hərbi hissədə fiziki hazırlığa ciddi diqqət yetirilir. Ümumi fiziki hazırlıq plana, günün nizam qaydalarına müvafiq aparılır. Bundan əlavə maraqlanan, həvəsi olan əsgərlər üçün idman-məşq otağı təşkil olunub, müxtəlif trenajorlarla təchiz edilib. Biz orda olanda əsgərlərdən bir qrupu böyük həvəslə məşq edirdi. Kim bilir, bəlkə gələcəyin Avropa, dünya, Olimpiya çempionları onların sırasındadır; maraq, zəhmət, niyyət həmişə uğur üçün şəriksiz stimul olub. Kim bilir, bəlkə onlardan hansısa bir nəfəri mötəbər yarışlardan birində qələbə qazanacaq, Avropa çempionu, I Avropa Oyunlarının çempionu, Olimpiya Oyunlarının mükafatçısı güləşçi Rəsul Cunayev kimi Ali Baş Komandanımıza əsgəri salam verəcək! Kim bilir...

Məişət sisteminə daxil olan bərbərxana da diqqəti çəkir. Əsgər səliqəsi həmişə önəmlidir. Bu baxımdan hərbi hissədə əsgərlərin saçları həmişə təlimata müvafiq qaydasında olur. Bərbər də əsgərdi. Əsgər yoldaşlarının saçına "əl gəzdirəndə" bu peşəni öyrəndiyinə görə taleyindən razı qalır...

Hərbi hissədə tibb xidməti də nümunəvi təşkil olunub. Hərbi həkim leytenant Razi Məmmədovun təşkilatçılığı ilə əsgərlər vaxtaşırı tibbi müayinədən keçirilir. Ehtiyacı olanlara isə tibbi yardım göstərilir...

Burada yaradılan şərait Silahlı Qüvvələrimizin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsini təmin edir. Digər hərbi bölmələrdə olduğu kimi, bu hərbi hissədə də nümunəvi şərait nümunəvi xidmət üçün, müəyyən mənada vəsilədir. Zabitlər də, əsgərlər də torpaqlarımızın işğaldan azad edilməsi üçün Ali Baş Komandanın əmrinə hazırdır.

Hərbi hissədə gördüklərim mənə həm könül xoşluğu verir, həm də bir həqiqətin təsdiqi olur: nümunəvi şəraitdə nümunəvi xidmət edən Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**N.PƏNAHOVUNDUR**





AZƏRBAYCAN ORDUSU

# Hərbi sahədən yazan jurnalistlər üçün keçirilən təlimin iştirakçıları təltif edilib



*Azərbaycanda "Dinc Dünya" Araşdırma Mərkəzinin həyata keçirdiyi və Müdafiə Nazirliyi tərəfindən dəstəklənən "Ekstremal jurnalistlərə təcrübə poliqonu təlimlərinin öyrədilməsi" (Jurnalistlərin ekstremal hallarda risklərdən çıxma öyrəncləri) layihəsi çərçivəsində təşkil olunan təlim kursları başa çatıb.*

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar sentyabrın 17-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində keçirilən mərasimdə təlim iştirakçılarına diplomlar təqdim olunub.

Əvvəlcə layihə ilə bağlı video-çarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Ümid Mirzəyev, Bakı Dövlət Universitetinin beynəlxalq jurnalistika kafedrasının müdiri, professor Həmid Vəliyev, Müdafiə Nazirliyinin zabiti Nizami Əliyev və digərləri hərbi sahədən yazan jurnalistlərin təcrübələrinin artırılması baxımından təlimin əhəmiyyətini xüsusi vurğulayıblar.

Uğurla icra olunan layihə çərçivəsində keçirilən təlimlər hərbi jurnalistlərin formalaşdırılması ilə bağlı atılan ilkin addım kimi dəyərləndirilib.

Layihə rəhbəri Əlisəfa Mehdiyev KİV təmsilçiləri üçün ilk dəfə təşkil olunan kursların ekstremal şəraitdə işləyən jurnalistlərin özlərini qoruması, cəmiyyətə düzgün informasiya çatdırılması baxımından əhəmiyyətini qeyd edib. Bildirilib ki, layihə çərçivəsində keçilən təlimlər hərbi sahəni işıqlandırmağın hüquqi, təcrübi və psixoloji normalarına, ekstremal jurnalistikanın qaydalar bazasının yaradılmasına, cəbhədən xəbərlər yayan media nümayəndələrinin peşəkarlığının artırılmasına yönəlib.



Diqqətə çatdırılıb ki, təlimlərin məqsədi təhlükəli vəziyyətlərdə, o cümlədən cəbhədən, döyüş yerindən, terror aktı baş verən ərazidən xəbər hazırlamağın hüquqi, təcrübi və psixoloji normativləri üzrə təlim keçmək, yəni hərbi mövzuda yazan jurnalistlərə bu sahədə davranış qaydalarını öyrətməkdir.

Layihə çərçivəsində keçirilən təlim hərbi mövzuda yazan jurnalistlərin peşəkarlığının artırılması, hərbi jurnalistlərin yetişdirilməsi baxımından mühüm addımdır.

Diqqətə çatdırılıb ki, altı gün davam edən təlimlər beynəlxalq təcrübələrə əsasən, Dağlıq Qarabağın relyefinə uyğun planlaşdırılıb. Nazirliyin bazasında zabit-mütəxəssis heyəti tərəfindən keçirilən təlimlər zamanı jurnalistlər "Hərbi hissənin gündəlik xidmət rejimi", "Hərbi təlim anlayışı", "Əsgərin döyüş hazırlığı dərsləri" və digər mövzularda təlim-mühazirələr dinləyiblər.

Bundan başqa, jurnalistlər cəbhəyanı ərazidə yay poliqon təlimində iştirak ediblər. Bildirilib ki, təlimdə 40-dan çox jurnalist və tələbə iştirak edib.

Sonda təlimin iştirakçılarına diplomlar təqdim olunub.

Hərbi təhsil

# "Atalarımızın yolunu biz davam etdirməliyik"

*Orta və ali təhsil ocaqlarında təntənə ilə qeyd olunan Bilik Günündən sonra auditoriyalar kursantları yenidən ağuşuna aldı. 2016-2017-ci tədris ili başlayandan Cəmşid Naxçıvanski adına Hərbi Liseydə böyük canlanma var. Təsdiq olunmuş tədris proqramına uyğun olaraq dərslər, məşğələlər keçirilir, kursantlara biliklər aşılanır.*



Cari tədris ilində daha yüksək bal toplayaraq C.Naxçıvanski adına Hərbi Liseyə qəbul olunmuş gənc kursantlarla görüşmək üçün polkovnik-leytenant Kamran Nəsibovla birlikdə tədris korpuslarına üz tutduq. Kapitan Fərid Rüstəmli həmin kursantlarla bizi tanış etdi.

İlk həmsöhbətim qəbulda ən yüksək - 532 bal toplamış kursant Əmirxan Mehdiyev oldu.

- Tovuz rayonunda dünyaya göz açmışam, - deyir kursant. - Kəndimiz cəbhə bölgəsinə yaxındır. Gecələr həmişə güllə səsləri eşidirik. Məktəb yollarında yurdumuzu qoruyan hərbçilərlə tez-tez rastlaşırdıq. Onları görəndə qürur hissi keçirirdim. Elə o illərdən də ürəyimdən zabit olmaq üçün C.Naxçıvanski adına Hərbi Liseyə üz tutmaq istəyi keçirdi. Valideynlərim də gələcəkdə məni hərbçi görmək arzusundaydılar. Məqsədimə çatmaq üçün dərslərimə ciddi fikir verir, hazırlığımı daim artırırdım. İnsan əziyyət çəkəndə həmişə bəhrəsini görür. İmtahandan çıxanda həyəcanım arxada qalmışdı. İnanırdım ki, göstəricim yaxşı olacaq. Belə də oldu. Artıq arzuma qovuşmuşam, Hərbi Liseyin kursantıyam. Burada nizam-intizama və tədrisə çox ciddi fikir verilir. Müəllimlər də təcrübəli və bacarıqlıdırlar. Biliklərimi artırmaq üçün qarşımda daha da geniş imkanlar açılıb. Bu imkanlardan yetərincə bəhrələnib gələcəkdə ordumuz üçün layiqli zabitlərdən biri olacağam.

Kursant Mehdi Əzimov da yaxşı nəticə göstərənlərdən biridir. O, imtahan zamanı suallarıdüzgün cavablandıraraq 518 bal toplayıb. O da bildirdi ki, ərkən çağlarından gələcəyini müəyyənləşdirib - zabit olacağını qətiləşdirib. "Hərbi formaya, zabit adına böyük rəğbətim var. Əynimə forma geyindiyim günü heç vaxt unutmayacam. Bir neçə gündür dərslər başlayıb. Elm, bilik öyrənmək üçün daha yaxşı şərait var. Bilik Günündə təntənəli surətdə şərəf andı içdik və söz verdik ki, bu anda həmişə sadiq qalacağıq."

- Atam Emin Əliyevi daim hərbi formada görmüşəm, - deyə kursant Rəsul Əlili fikirlərini bölüşür. - O, Qarabağ döyüşlərində iştirak edib, yurdumuzun azadlığı uğrunda vuruşub. İndi təqaüddədir, ehtiyata çıxıb. Atalarımızın yolunu biz davam etdirməliyik.

Növbəti müsahibim olan kursant Ruslan Muradov da imtahanlarda yüksək bal toplayıb. Salyan rayonunda dünyaya göz açıb. O dedi ki, təhsil aldığı orta məktəb Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olmuş Azər Əliyevin adını daşıyır. "Təhsil ocağının qarşısında onun büstü qoyulub. Hər tədris ilində Azərin anım günləri keçirilir. Müəllimlərimiz onun keçdiyi döyüş yolu haqqında bizə geniş danışırdılar. Azər cəsur bir əsgər olub. Torpaqlarımızı ermənilərdən qoruyarkən canından keçib. Yurdumuzu işğal etmiş ermənilərə nifrət ruhunda böyümüşəm. Hərbi Liseyə üz tutmaqda məqsədim Vətən oğullarının döyüş yollarını şərəflə davam etdirməkdir."

İmtahanlarda yüksək nəticə göstərmiş kursantlardan Sadiq Soltanov, Nurlan Qasımov, Orxan Seyidzadə, Rəşad Qəhrəmanzadə, Nihad Nəsirli, İsmayıl Abdullayev və başqaları da ürək sözlərini bildirdilər. Sevincli və bəxtəvər görünürdülər. Çünki illərdən bəri ürəklərində gəzdirdikləri arzulara qovuşmuşdular.

Bir azdan zəng kursantları dərsə "çağırır". Dəhlizə sakitlik çökür. Sinif otaqlarından yalnız müəllimlərin səsi eşidilir. Onlar sabahımızın zabitlərinə elm, bilik öyrədirlər...

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Azərbaycan səfirliyi Çində növbəti erməni təxribatının qarşısını alıb

Azərbaycanın Çin Xalq Respublikasındakı səfirliyi ermənilərin növbəti təxribatının qarşısını alıb. Xarici ölkələrdə ictimai fikrin çaşdırılması istiqamətində vaxtaşırı müəyyən işlər görməyə çalışan ermənilər bu dəfə Çində belə bir addım atmağa cəhd ediblər. Belə ki, Şanxay şəhərindəki Şərqi Çin Pedaqoji Universitetində Rusiya Tədqiqat Mərkəzinin təşkilatçılığı ilə "Xristianlığın əsasları" adlı seminarın proqramına "İnanc və ənənə: Erməni Apostol kilsəsi, Ermənistanda və Dağlıq Qarabağda icma quruculuğu" mövzusunda mühazirə daxil edilmişdi.

Şanxay şəhərində yaşayan və elmi işlə məşğul olan soydaşlarımız məsələ barədə Azərbaycanın Çindəki səfirliyini məlumatlandırdıqdan sonra diplomatik nümayəndəliyimiz universitetin rektoruna məktub ünvanlayaraq mövzu ilə bağlı ətraflı məlumat verib, məsələnin mahiyyətinin yüksək dini amalların təbliğinə deyil, ermənilərin qanunsuz ərazi iddialarına söykəndiyini qeyd edib.

Şərqi Çin Pedaqoji Universitetinin rəhbərliyi məsələnin mahiyyətini öyrəndikdən sonra sözügedən mühazirəni tədbirin proqramından çıxarmağı qərara alıb.

**AZƏRTAC-ın materialları əsasında**




Esse

"Bir mən vardır məndə məndən içəri" - Yunus Əmrə belə deyib; bəşər içindəki "mən"in səsini eşidəndə, onun məsləhətlərinə əməl eləyəndə daha qüdrətli olur. Müharibədə o "mən"in səsi Vətənin səsi kimi eşidilir - möhtəşəm olur, dönməz olur. Vətənin səsini eşidən, bu səsi səsinə, nəfəsinə üzərrik eləyən, ömrünün davamını o səsin mühafizəkarı bilən əsgərə qəhrəman deyirik. Əsgər üçün hər şey bu səsin yaşamı üçündü. Əsgər bu səsin qüdrətiylə vətənləşir. Bu səs tarixin cığırdaşıdı, bu səs həmişə var olacaq...

Vətəni Tanrılıq ucalığında yaşadanlar ünü ündən, səsi səsdən ayırd eləyə bilir, o səsin çiçəkdə ləçəyə, ləçəkdə şehə, şehdə mehə hopduğunu duyunca vətənləşir...

Ürəyiylə dinləyənlər Vətənin səsini aydınlığıyla eşidir, o səsi yaşantılarının odu bilir, közü bilir. Bu səs aprel döyüşlərinin sərkərdəsiydi - döyüşənlərin sırasındaydı. Ondan qaralan buludlar da çəkinirdi, o buludlara ümid olanlar da. Dağlara, yal-yamaca yağan, düzlərə-çöllərə yağan, çəkinə-çəkinə boy göstərən çiçəklərə yağan, yollara-izlərə, əsən yellərə yağan, yaraları qaysaqlamayan torpağa, titrəşən yarpağa,... yağan yağış bu səsə aydınlıq suyuydu.

Talış kəndinin yaxınlığında uca təpəliyin ətəyindəydilər. 1993-cü ildən üzü bu yana sıxılcımlar çəkən, yad nəfəsindən çimçəşən, yad baxışından, yadların yerişindən qəhərlənən Təpəyə sarı baxırdılar - hər birinin ürəyi bu səsə köklənmişdi. O Təpəni sıxan işğalın son nəfəsini bu əsgərlər tezləşdirəcəkdi. Yüksək rütbəli komandir o anların rəngini görürdü; işığını hiss eləyirdi, Vətənin səsi işğalın sağ gözünü ovcuna tökəcək güllənin səsinə dirsəklənmişdi.

Külək bir ayrı həvəslə əsirdi, yarpaq bir ayrı həvəslə titrəyirdi. Vətənin səsinin qüdrətiydi bu...

Yerlər də, göylər də gördü ki, bu səs dünyanın qarışıq yuxusunu yozmaq gücündədi.

Bu səs min illərin tünlüyündən sıyrılıb gələn səsiydi; o səs tarixə tanış səsiydi, tarixin yaxşı tanıdığı səsiydi...

"Qolunuza qüvvət!" - Qazan xanın səsiydi...

"Qolunuza qüvvət!" - Cavad xanın səsiydi...

"Qolunuza qüvvət!" - Yusif Mirzəyevin, Vəzir Orucovun, Koroğlu Rəhimovun,... səsiydi; Vətənin səsinə dirsəklənənlərin ürəyi Vətənin səsinə qarışan bu səslərə köklənmişdi. Döyüşdən əvvəl komandirin dedikləri əsgərlərin sevgisinə sevgi, ürəyinə təpər, gözlərinə nur olmuşdu. Əsgərlər eşitdiklərini Vətənin adından deyilən öyüd-nəsihət, tövsiyə bilirdilər; yelin titrəyişini, ayın-ulduzun üzünü örtməyə meyillənən buludların tərpənişini, qolu-qanadı üyüşən soyuğun ağacların budaqlarından sürüşməsini,... hiss etmədən dinləyirdilər: "Ömür Vətən üçün yaşanılan günlərdi, aylardı, illərdi", - demişdi general. "Siz bu günlərinizi, aylarınızı Vətən üçün yaşayırsınız. Sizin sələfləriniz də zaman-zaman belə yaşayıb. "Hardan başlanır Vətən?" - sualını biz də eşitmişik, siz də eşidibsiniz. Vətən əsgərin ürəyindən başlanır. Sizin ürəyinizdən başlanır. Torpağı dinşəyin. Vətənin səsini eşidəcəksiniz. Qarşıdakı Təpəni yad səsindən, yad nəfəsindən qurtarın. Orda Azərbaycan bayrağı dalğalansın. Həm də məhz bu gün dalğalansın. O Təpəyə yeni adı siz verəcəksiniz, o ad sizin cəsarətinizlə, qətiyyətinizlə veriləcək: Bayraqtəpə!..."...

...Azərbaycan bayrağı Bayraqtəpədə də dalğalanırdı!...

Komandir bayrağımızın kölgələndirdiyi təbii səngərlərdə dayananlara gözdolusu baxır, "Sağ ol, Azərbaycan əsgəri!" deyir. Bu səs Vətənin səsinə köklənən səsdi, Vətənin səsindən güc alan səsdi, bayrağımızla yanaşı ucalan səsdi. Bunu əsgərlər də duyur...

Ürəyin bir səsin cazibəsindədi. Məmləkətimiz bir səsin, o səslə eşidəcəyimiz bir kəlmənin təşnəsidi. Vətənin səsidi bu səs, "Qələbə!" kəlməsidi bu kəlmə...

"Böyük Qələbəyə aparan yollardan biri Bayraqtəpədən başlayacaq!" Varlığımıza hopub bu səs...

**Rəşid HÜSEYNOV,
əməkdar jurnalist**

# Hərbi peşəyə sevgilərlə

*Son vaxtlar orduya, hərbi peşəyə maraq özünü cəmiyyətimizdə kifayət qədər qabarıq göstərir. Oğullarımızla yanaşı, ömrünü hərbi peşəyə həsr etməyi qərara alan qadınlarımızın sayının da ildən-ilə artması bunun göstəricisidir. Zərif cinsin nümayəndələri Müdafiə Nazirliyinə, ayrı-ayrı qoşun növlərinin komandanlığına müraciət edərək hərbi peşələrə həvəs göstərirlər.*



Bu günlərdə Hərbi Dəniz Qüvvələrinin Təlim və Tədris Mərkəzində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları üçün kursun buraxılışı oldu. Baş matros İlahə Qaraxanova da bu kursun məzunudur.

Hələ orta məktəb illərindən onda hərbə maraq yaranıb. Gənclərin çağırışaqədərki hazırlığı fənnində və keçirilən vətənpərvərlik tədbirlərində daim fəal iştirak edirdi. Bu, həm də valideynlərinin onları Vətənimizə layiqli vətəndaş kimi tərbiyə etmələrindən irəli gəlirdi. Qeyd edim ki, Qaraxanovlar ailəsinin iki qız övladı hərbi xidmətdədir.

- Canımdan çox sevdiyim Vətənimin bir hissəsi düşmən tapdağı altında olmağı məni çox düşündürür, - deyə İlahə fikirlərini bölüşür. - Belə bir vəziyyətdə hər bir vətəndaş öz xalqına, dövlətinə dəstək olmalıdır. Bu gün dövlətimizin ordu quruculuğuna xüsusi qayğısı məndə də ruh yüksəkliyi yaratdı. Silahlı Qüvvələrimizdə ömrünü orduya həsr etmiş qadın hərbçilərdən biri olduğum üçün qürurluyam.

Söhbətimizdən sonra düşünürəm ki, daxildən gələn Vətən sevgisi ilə hərbçi peşəsini seçən insanlar kişi, qadın, fərq etmədən Ali Baş Komandan İlham Əliyevin torpaqlarımızın işğaldan azad olunması barədə verəcəyi əmri gözləyir. Xalqımız hər an işğal altında olan torpaqlarımızı azad etmək, şəhidlərimizin qisasını almaq arzusu ilə yaşayır. Müharibə olarsa, qadın hərbçilər də kişilərlə bərabər çiyin-çiyinə vuruşmağa hazırdılar. Vətən hər kəsindir. Onu sevmək və qorumaq hamımızın borcudur.

Üçəm övlad sahibi olan İlahə xanımın həyat yoldaşı ehtiyatda olan zabitdir. Bu xanımın gündəlik qayğıları başından aşır. Evdə də Vətənə layiqli övladlar tərbiyə etmək onun əsas vəzifələrindən biridir. Nəvai, Xaliq və Nəzrin bu il birinci sinfə gedəcəklər. Ana övladlarının televiziyada yayımlanan vətənpərvərlik proqramlarına, himnimizə, hərbi marşlara həvəs göstərdiklərindən qürurla söz açdı.

Azərbaycan qadını çox güclüdür və hər şeyə qadirdir. Formanı geyinəndən sonra isə belə bir fikir formalaşır ki, sən artıq adi vətəndaş deyil, seçilmiş bir vətəndaşsan. Forma daşıdığın üçün fəxr edir, qürur duyursan. Bu hissləri sözlə ifadə etmək çox çətindir. Hərbçi həyatı intizamlı olmağı və güclü iradə tələb edir. Ordumuzun hərbçi qadınları isə heç bir güclü ordunun qadınlarından geri qalmırlar.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
foto
çavuş
N.PƏNAHOVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə terror aktı törətmək istəyən iki kamikadze yaxalanıb



Türkiyənin Şanlıurfa bölgəsində terror aktı törətmək hazırlığında olan iki kamikadze yaxalanıb.

Rəsmi məlumata görə, Türkiyənin təhlükəsizlik qüvvələri tərəfindən yaxalanan həmin şəxslər İŞİD terrorçu qruplaşmasının üzvləridir.

## Yeni yaradılmış batareya 400 il işləyəcək



Kaliforniya Universitetinin komandası uzun müddət işləyən akkumulyator yaradıb.

Alimlərin sözlərinə görə, nanobatareya təsadüfən yaradılıb və əsas özəlliyi odur ki, 200 min dəfə enerji ilə doldurula bilər.

Həmin nanobatareya universitetin aspirantı tərəfindən yaradılıb. O, xüsusi naqillər dəstini manqan dioksidə yerləşdirdikdən ora pleksiqlasa oxşar elektrolit geli əlavə edib. Çoxlu sayda enerjidoldurmadan sonra nanonaqillər zədələnməyib.

Belə ki, adi noutbukun akkumulyatoru bir neçə yüz dəfə enerjidoldurmaya hesablandığı halda, yeni yaradılmış batareya təxminən 400 il işləyəcək.

## Alimlər: delfin "dil"i söz və cümlələrdən ibarətdir



Feodosiya şəhərindəki (Krım) "Karadağ" təbiət qoruğunun mütəxəssisləri delfinlərin "dil"inin insan dilinə bənzədiyini bildiriblər.

Elm adamları xüsusi sualtı mikrofon vasitəsilə delfinlərin dialoqunu qeydə alıblar. Məməlilərin səsin tezliyini və ucalığını dəyişə bildiyi məlum olub. Alimlər bu xüsusiyyəti söz birləşməsi və ya cümlə kimi dəyərləndiriblər.

Mütəxəssislər delfinlərin dialoqunun insanların danşığını xatırlatdığını söyləyirlər.

## Səudiyyə Ərəbistanında naməlum şəxslər iki polisi güllələyib



Səudiyyə Ərəbistanının şərqində yerləşən Dammam şəhərində naməlum şəxslər polis patrulunu atəşə tutub, nəticədə iki asayiş keşikçisi həlak olub.

Bu barədə Səudiyyə Ərəbistanının SPA informasiya agentliyi ölkənin DİN nümayəndəsinə istinadən xəbər yayıb.

Agentliyin məlumatına görə, terror cinayəti kimi qiymətləndirilən bu hadisə səlahiyyətli orqanlar tərəfindən araşdırılır.

## Misirə "Mistral" tipli ikinci helikopterdaşıyıcısı verilib



Fransanın Sen-Nazar şəhərində "Mistral" tipli ikinci helikopterdaşıyıcısı təntənəli surətdə Misirə təhvil verilib. Misir KİV-ləri xəbər verir ki, sabiq prezident Ənvər Sədatın adı verilən helikopterdaşıyıcı yaxın günlərdə Fransa limanını tərk edib Misirin şimal paytaxtına - İsgəndəriyyə limanına gələcək.

Təntənəli mərasimdə iştirak edən ölkənin Hərbi Dəniz Donanmasının komandanı Usamə Rabia bildirib ki, Yaxın Şərqdəki müxtəlif təhdidlər öz resurslarının müdafiəsi və milli təhlükəsizliyinin təmin olunması üçün Misiri zəruri vasitələr əldə etməyə sövq edir. Komandanın sözlərinə görə, təhlükəsizlik Misirə tərəqqi yolunda sürətli templərlə irəliləmək və bütün sahələrdə ölkənin liderliyini təsdiqləmək imkanı verəcək.

Xatırladaq ki, "Mistral" tipli ilk helikopterdaşıyıcısı bu il iyunun 23-də İsgəndəriyyə sahillərinə gəlib çatıb.

**AZƏRTAC-ın
materialları əsasında**

# Dahi bəstəkarın xatirəsi anıldı



Hər il sentyabrın 18-i professional Azərbaycan musiqisinin banisi Üzeyir Hacıbəylinin doğum günü ölkəmizdə musiqi günü kimi qeyd edilir. Bu əlamətdar günlə bağlı Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də tədbir keçirildi. Tədbiri təhsil ocağındakı hərbi orkestrin rəisi polkovnik-leytenant Böyükağa Məmmədov açıq elan etdi. Dahi bəstəkarın ömür yolu və fəaliyyəti barədə çıxış etmək üçün söz orkestrin konsertmeystri Vüqar Məmmədbəyliyə verildi.

- Bu gün hər birimizin fəxr etdiyi dahi bəstəkar Üzeyir Hacıbəyli 18 sentyabr 1885-ci ildə Ağcabədidə dünyaya göz açıb, - deyə o, bildirdi. - Kiçik yaşlarından ailəsi Şuşaya köçüb. Şuşa isə, bildiyiniz kimi, Azərbaycan musiqisinin beşiyidir. Başqa sahələrlə yanaşı, Üzeyir musiqiyə də həvəs göstərirdi. Tarda, skripkada və baritonda ifa etməyi bacarırdı. Qori müəllimlər seminariyasında təhsil alarkən Mosart, Bethoven, Şopen, Bax, Çaykovski kimi klassik bəstəkarların yaradıcılığı ilə yaxından tanış olur.

Dahi bəstəkar jurnalist və tərcüməçi kimi də fəaliyyət göstərib. "Molla Nəsrəddin" jurnalında məqalə və



felyetonlarla ardıcıl çıxış edib. Böyük rus yazıçısı N.Qoqolun "Şinel" və başqa hekayələrini tərcümə edib. Onun bəstələdiyi "Leyli və Məcnun" operası ilə təkcə ölkəmizdə deyil, Şərqdə opera sənətinin əsası qoyulub. Sonra "Şeyx Sənan", "Rüstəm və Zöhrab", "Əsli və Kərəm", "Şah Abbas" və başqa operaları da yazıb. "Ər və arvad", "Arşın mal alan" və "O olmasın bu olsun" kimi musiqili komediyaların da müəllifi Üzeyir Hacıbəylidir. Bəstəkarın "Koroğlu" uverturası isə bu gün böyük maraqla qulaq asdığımız sənət əsəridir. Hər şeydən öncə Üzeyir Hacıbəyli Azərbaycan Respublikası Dövlət himninin bəstəkarıdır.



Sonra C.Naxçıvanski adına Hərbi Liseyin hərbi orkestri dahi bəstəkarın əsərlərini səsləndirdi. İlk olaraq salonu "Koroğlu" uverturasının sədaları bürüdü. Tədbir iştirakçıları "Leyli və Məcnun" operasından, "O olmasın, bu olsun" komediyasından parçaları da maraqla dinlədilər.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

*Əks-səda*

# Əsgəri yalnız Vətənin taleyi düşündürməlidir

Bu yaxınlarda doğma qəzetimizin 3 sentyabr tarixli sayında dərc edilmiş "Ana harayı" adlı bir yazı dərin marağıma səbəb oldu. Taleyini müqəddəs bir peşəyə həsr etmiş bir azərbaycanlı qadının məktubu, doğrudan da, hamını düşünməyə məcbur edən bir haraydır, çağırışdır. Məni də bir ana böyüdüb, boya-başa çatdırıb, buna görə də bütün analar müqəddəsdir.



Düşündürücü bir sual ortaya çıxır: ananın övladı niyə intihara əl ataraq ucuz ölümü ilə ata-anasına, bütün doğmalarına xəcalət gətirib? Axı bu hadisə olmaya da bilərdi. Ananı yaxşı başa düşürəm, övladının atdığı addım onu yandırıb-yaxır və günahkar axtarmağa çalışır. Özünü də, cəmiyyəti də, oğlunun komandirini və əsgər yoldaşlarını da günahkar sayır. Neçə illərdir ki, bir zabit kimi Silahlı Qüvvələrimizdə xidmət edirəm. Yüzlərlə, minlərlə əsgərlə xidmət etmişəm və heç birində də eyni xarakter görməmişəm. Bəziləri orduda nöqsan tapan kimi komandiri, zabiti günahkar bilir, amma yaxşı olardı ki, hadisənin törənməsinə səbəb olan amilləri düşünək.

Polkovnik Abdulla Qurbaninin qeyd etdiyi kimi, həmin əsgər də Vətən uğrunda canını fəda edərək ən yüksək şəhidlik zirvəsini qazana bilərdi, başqa qəhrəman əsgərlərimiz kimi onun da adı dillərdə əzbər olardı. Deməli, ailədə və cəmiyyətdə buraxılan bəzi səhvlər, erkən yaşlarından özünə qapanma, ünsiyyət qura bilməmə və s. amillər həmin əsgərin çox asanlıqla yad təsirə düşməsinə səbəb olub. Adətən 18-20 yaşlı gənclər çılğın təbiətli olurlar, rastlaşdıqlarına və eşitdiklərinə tez, düşünmədən reaksiya verirlər.

Ananı əmin etmək istərdim ki, orduda baş verən hər bir əsgər ölümü bizim üçün ciddi itkidir və belə itkilərin qarşısının alınması üçün ordu rəhbərliyi tərəfindən ən təsirli addımlar atılır. Biz özümüz də atayıq, övlad itkisinə heç zaman biganə qala bilmərik. Və ziyalı ana əmin olsun ki, onun övladının itkisi bizi də dərindən narahat edir. Belə itkilərin qarşısının alınması üçün bütün zəruri tədbirlər görülür və görüləcəkdir.

Fürsətdən istifadə edib bütün gənclərə üz tutub demək istərdim ki, hərbi xidmətin yaratdığı fürsətdən istifadə edib ana qədər müqəddəs varlıq bildiyiniz Vətəni qorumağın sirlərini mükəmməl öyrənin. Qoy, sizin qəlbinizə yalnız Vətən sevgisi hakim kəsilsin.

**Mayor**
**Fərhad MƏCİDLİ,**
**"N" hərbi hissəsi**

# İdman

## Azərbaycan idmançısı Peruda keçirilən yarışda qalib olub



Perunun paytaxtı Limada Latın Amerikası və digər qitələrin müxtəlif ölkələrinin idmançılarının mübarizə apardığı sərbəst döyüşün MMA versiyası üzrə "Gran Champion" adlı çempionat keçirilib. Çempionatda ölkəmizi Azərbaycanın Kolumbiyadakı səfirliyinin dəstəyi ilə qaydasız döyüş ustası Cavid Adıgözəlov təmsil edib. C.Adıgözəlovun Latın Amerikasındakı ardıcıl qələbələrini nəzərə alaraq münsiflər heyəti onu birbaşa kəmər uğrunda döyüşə buraxıb. Gərgin keçən döyüşdə rəqibini boğucu fəndlə təslim olmağa məcbur edən Cavid Adıgözəlov çempionatın kəmərini belinə bağlayaraq yarışın qalibi olub.

## Boksçularımız beynəlxalq turnirdə 1 qızıl və 3 bürünc medal qazanıblar




Ukraynanın Berdiçev şəhərində Kliçko qardaşlarının mükafatı uğrunda gənc boksçular arasında keçirilən beynəlxalq turnir başa çatıb. Yarışa 12 idmançı ilə qatılan Azərbaycan yığması Vətənə dörd medalla qayıdıb. Millimizin heyətində ən yaxşı nəticəni Məhəmməd Abdullayev (91 kq-dan yuxarı) göstərib. Təmsilçimiz həlledici görüşdə yerli boksçu Vyaçeslav Qavrilyuka qalib gələrək turnirdə çempion adına layiq görülüb. Ruslan Rüstəmov (52 kq), Malik Həsənov (56 kq) və Sərxan Əliyev (60 kq) isə bürünc medalla kifayətləniblər.

## Azərbaycan cüdoçuları Avropa çempionatında iki qızıl medal qazanıb



İspaniyanın Malaqa şəhərində gənclər arasında cüdo üzrə Avropa çempionatına start verilib. Yarışın ilk günü Azərbaycan milli komandası üçün uğurlu olub. Belə ki, gənc cüdoçularımız iki qızıl medal qazanıb.

55 kiloqram çəki dərəcəsində ölkəmizi təmsil edən Natiq Qurbanlı finala gedən yolda türkiyəli Oğuzhan Karacanı, macarıstanlı Daniel Monorini və gürcüstanlı İrakli Kupatadzeni məğlub edib. O, həlledici görüşdə Rusiya cüdoçusu Ali Pafov üzərində qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 73 kiloqram çəki dərəcəsində çıxış edən Hidayət Heydərov da uğurlu nəticəyə imza atıb. O, rumıniyalı Aleksandr Raicuya, polşalı Tomasz Czerniaşskiyə, britaniyalı Danile Povelə və kosovalı Akil Gjakovaya qalib gələrək finala yüksəlib. Qızıl medal uğrunda görüşdə Gürcüstan təmsilçisi Giorgi Katsiaşvilini də məğlub edən Heydərov Avropa çempionu olub.

## Üzgüçümüz ikinci medalını qazanıb



Azərbaycan millisi "Rio-2016" XV Yay Paralimpiya Oyunlarında daha bir medal qazanıb. Üzgüçümüz Dmitri Saley 50 metr məsafəyə sərbəst üsulla yarışların finalında məsafəni 24.29 saniyəyə qət edərək ikinci olub. Xatırladaq ki, onun qoşulduğu təsnifat mərhələsindən finaladək 19 üzgüçü üç qrupda mübarizə aparıb. İlk qrupda çıxış edən D.Saley məsafəni 24.40 saniyəyə üzərək birinci olub.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Abdullayev Əvəz Taryel oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 499
Nüsxə 4650